Xalq qəzeti .- 2021.- 23 iyun.- S.10.



# Avro – 2020 peşəkarlıq səviyyəsi və mübarizə əzmi yüksək olanlar qalib gəlirlər

**Avro–2020 qədim kontinentin ölkələrini dolaşmaqda və milyonlarla futbol azarkeşini sevindirməkdə davam edir. İyunun 21-də çempionatın qrup mərhələsinin üçüncü yekun turunun oyunları başa çatdı. C qrupunun son turunun qarşılaşmaları yekunlaşandan sonra, Bakı vaxtı ilə gecə saat 23:00-da B qrupunun oyunlarına start verildi. Rusiyanın ikinci paytaxtı Sankt Peterburqda Finlandiya və Belçika milliləri qarşılaşdı, Rusiya yığma komandası isə Kopenhagendə ev sahibi Danimarka millisi ilə üz-üzə gəldi.**



## Rusiya millisi məğlubiyyətdən qaça bilmədi

Növbəti 8/1 final oyunlarına vəsiqə almaq baxımından ən mühüm matç Rusiya və Danimarka milliləri arasında keçirilən qarşılaşma idi. Bu matçda Rusiya millisi yoluna davam etmək üçün ya qələbə qazanmalı, ya da heç-heçə etməli idi. Məğlubiyyət onun Avro–2020-ni tərk etməsi demək idi.

Digər tərəfdən də bu qarşılaşma Rusiya yığma futbol komandası üçün son üç ilin ən mühüm matçı hesab edilirdi. Ona görə də Stanislav Çerçesov heyəti müəyyənləşdirərkən heç bir mövqedə səhv etməyə haqqı yox idi.

Danimarkalıları isə nəinki məğlubiyyət, heç-heçə də qane etmirdi. Ona görə də matçın start fiti səslənən kimi, danimarkalılar böyük qüvvə ilə hücumlara başladılar. Lakin ilk qol vəziyyətini Çerçesovun yetirmələri yaratdılar – sürətli əks hücumu Monako klubunda top qovan Aleksandr Qolovin güclü zərbə ilə yekunlaşdırdı. Lakin Kasper Şmeyxel yerində idi və topu çevik hərəkətlə dəf etdi. Skandinavlar ilk təhlükəli vəziyyəti oyunun 29-cu dəqiqəsində yaratdılar. Piyer –Emil Hayberq sanki güllədən atəş açırmış kimi topa güclü zərbə endirdi... Top qapı dirəyinin yanından kənara çıxdı. Hesab isə bundan 9 dəqiqə sonra sakandinavların gənc oyunçusu Mikkel Damsqorun cərimə meydançasından kənardan Rusiya millisinin qapısının doqquzluğuna vurduğu möhtəşəm zərbə ilə açıldı. Matvey Safonov qapıya gedən topu seyr etməkdən başqa, heç bir reaksiya göstərə bilmədi.

Rusiya millisi nəyin bahasına olursa-olsun, qol vurmalı, heç olmaya 1 xal qazandıracaq heç-heçəyə nail olmalı idi. Fasilədən sonra Çerçesov hücumu gücləndirdi. Topa sahib olmada üstünlük qazanan rus futbolçuları bunu heç cür qola çevirə bilmirdilər. Rəqib isə inadkarlıqla hücumlarını davam etdirirdi. Oyun başlayandan Rusiya millisinin qapısı önündə sanki keşik çəkən Yussuf Poulsen nəhayət ki, istədiyini aldı. Yarımmüdafiəçi Roman Zobnin qapıçı Safonova ötürmə etmək istəyərkən çox kobud səhv etdi və Yussufa topu ələ keçirib dərhal boş qapıya vurdu, Rusiya – 0, Danimarka – 2. Doğrudur, bundan sonra rusların kapitanı Artyom Dzyuba 11 metrlik cərimə zərbəsini qola çevirərək hesabı 2–1-ə endirdi. Lakin skandinavlar bu hesabla heç cür qane olmaq istəmirdilər.

Oyunun 79-cu dəqiqəsində, artıq bir neçə məqamda əla rekasiya göstərib qapısını xilas edən Safonovun növbəti qurtarışda top matçın ən yaxşılarından olan Danimarka millisinin sağ cinah müdafiəçisi 25 yaşlı Andreas Kristensenin qarşısına düşdü. Futbolçu kəskin zərbə ilə Safonovun qapısından 3-cü qolu keçirdi. Yeri gəlmişkən, Kristensen oyunda qapıya 3 zərbə endirməklə, 86 faiz dəqiq ötürmələrlə və 7 hava mübarizəsində qalib çıxmaqla portnyorlarını üstələyirdi. Üç dəqiqə sonra isə rusiyalı futbolçu Mirançukla bir klubda top qovan Mexle qonaqların qapısından növbəti topu keçirdi və bununla da oyunda son nöqtəni qoymaqla Rusiya millisini amansız məğlubiyyətə uğratdı.

Beləliklə, Rusiya millisi artıq üçüncü dəfə ardıcıl Avropa Çempionatının qrup mərhələsindən yuxarı çıxa bilmir. Bu dəfə də yekun turda cəmi 3 xal toplayan Rusiya millisi kvartetin dördüncüsü olur və pley-offdan məhrum edilir. Doğrudur, bu mini turnirdə Danimarka da, Finlandiya da hərəyə 3 xal toplamışlar. Lakin əlavə göstəricilərə görə, bu komandalar müvafiq olaraq ikinci və üçüncü yerləri bölüşürlər. Danimarka isə 3 xalla birbaşa 8/1-ə vəsiqə qazanır.

Rusiya millisindən məğlubiyyət acısı dadmış Finlandiya yığma komandasının baş məşqçisi Markku Kanerva trunirdəki vəziyyətlə bağlı jurnalistlərə müsahibə verərkən deyib: “Daniya yığması göstərdi ki, psixoloji cəhətdən çox güclüdür. Eriksenlə baş verən hadisə – bu, çox dramatik bir məqam idi. Birinci matça qayıdaraq demək sitəyirəm ki, mən o matçdakı oyunumuzdan çox razıyam. Bütövlükdə, bizim Rusiyanı geridə qoymağımızdan qürur duyuram. Turnirdən əvvəl kimsənin buna inanacağını düşünmürəm”.





Rusiya Danimarka matçının əsas statistikası:

- **Rusiya üçüncü dəfə Avronun qrup mərhələsini adlaya bilmədi.**
- **Çerçesov Rusiya millisinin baş məşqçisi kimi 20-ci məğlubiyyətinə məruz qaldı, millinin tarixində başqa bir məşqçinin komandası bu qədər məğlub olmayıb.**
- **Danimarka 2004-cü ildən bu yana ilk dəfədir qrupdan çıxır.**
- **Danimarka Avronun tarixində qrup mərhələsinin startında iki məğlubiyyətdən sonra pley-offa çıxan birinci komandadır.**
- **Damsqor 20 yaş 353 günlə Avro–2020-də Danimarka yığması heyətində ən gənc qol müəllifidir.**
- **Millidəki 5 oyunda Damsqor 3 qol vurub.**
- **Poulsen millinin tarixində Avronun final mərhələsində birdən çox qol vuran səkkizinci oyunçudur.**
- **Kristensen Danimarka millisində 44 oyunda yalnız ikinci qolunu vurub.**

## Qrupun lideri finlərin əzmini qırmağı bacardı

B qrupunun üçüncü turu Belçika və Finlandiya matçı ilə başa çatırdı. Belə sıx qrupda bir xalın necə böyük əhəmiyyət daşıdığını yaxşı başa düşən Finlandiya yığma komandasının baş məşqçisi Markku Kanerva yetirmələri təşəbbüsü “qırmızı şeytanlara” buraxıb, müdafiədə oynamağa daha çox üstünlük verdilər. Əgər birinci iki turda belçikalılar rəqiblərini sürətli oyunları ilə süpürləyirdilərsə, bu qarşılaşmada finlər çox nadir hallarda qapılarına zərbə endirməyə imkan verirdilər. Birinci hissədə ən yaxşı qol vəziyyəti qazanan Jeremi Dokyunun effektli zərbəsini Lukaş Qradeçki ustalıqla dəf etdi.

Finlərin qolkiperinin daha bir gözəl seyvi 61-ci dəqiqədə Eden Azarın zərbəsindən sonra qeydə alındı. Buna qədər Qlen Kamara Tibo Kurtuanın qoruduğu qapıya artıq birinci zərbəni endirmişdi. Bir neçə dəqiqədən sonra Kevin de Brüynədən çox zərif bir ötürmə alan Lukaku topu hədəfə vurdu. Lakin videoassisent qola “yox” dedi: oyundankənar vəziyyət.

Müəyyən bir vaxt kəsiyində elə görünürdü ki, Finlandiya oyunda sürpriz nümayiş etdirəcək. Lakin qrupun favoriti buna şans vermədi və matçın 74-cü dəqiqəsində Tomas Vermalenin güclü zərbəsi dirəyə dəyəndən sonra Qradeçkinin əlinə toxunub qapıya girdi: 1:0. Çox keçmədi ki, Belçika millisinin forvardı Romelu Lukaku rəqibin cərimə meydançasında topla çox gözəl fırlanaraq qapıya güclü zərbə endirdi: 2:0. Bu lukakunun Avro– 2020-də 3-cü qolu idi.



Etiraf edək ki, finlərin müdafiədə nümayiş etdirdikləri oyun əsl qəhrəmanlıq idi. Lakin favorit Belçika millisinin təzyiqləri qarşısıalınmaz idi. Finlandiya hər iki hissədə bir iki qol vəziyyəti yaratdı, lakin Belçika bütün oyun ərzində meydanda hökmranlıq etdi və layiqli qələbə qazandı. Bir gerçəklik ondan ibarətdir ki, finlər turnirdə onlarla hər komandanın asanlıqla oynaya bilməyəcəyini nümayiş etdirdilər.

Belçika millisinin baş məşqçisi Roberto Martines yetirmələri haqqında haqlı olaraq deyir: “Bu komanda son 5 ildə sabit oyun nümayiş etdirir. İndi hər bir oyunçunun özünün yüksək formasına düşməsi lazım gəlir. Bizə Sevilyada oynamaq lazım gələcək, hər bir futbolçu bura adaptasiya olunmalıdır və komanda naminə gücünü sərf etməlidir”.

Finlandiya yığmasının baş məşqçisi Markku Kanerva isə oyunda bir xal qazana bilmədiklərinə görə komandasından narazıdır. “İndi bizim pley-offa düşmək üçün çox kiçik şansımız var. Lakin mən bu turnirdə nümayiş etdirdiyimiz oyundan qürur duyuram. Biz göstərdik ki, bu turnirdə artıq komanda deyilik”, – deyə Kanerva bildirib.

Beləliklə, B qrupunda pley-off mərhələsinə yüksələn iki komanda bəlli oldu – Belçika və Danimarka. Əzmkar Finlandiya milli komandası isə digər qrupların oyunlarının yekunlaşmasını gözləməli olacaq.

Dünən Avro – 2020-nin daha bir qrupunda oyunlar yekunlaşdı. İlk oyunlardan bu çempionatın sürprizinə çevrilən D qrupunda Londonda əfsanəvi Uemblidə Çexiya İngiltərə millisinin qonağı olacaq. Hər iki komanda turnirdə bir qələbə və bir heç-heçə ilə hərəyə 4 xal toplayaraq, birinci və ikinci yerləri bölüşdürürdülər. Heyətində bu Avro turnirinin iki oyununda üç qol vuran futbolçu Patrik Şik olan çexlər müəyyən üstünlüyə malik idilər. Top fərqindəki müsbət üstünlüyə rəğmən onlara pley-offa çıxmaq üçün heç-heçə də kifayət edirdi. Elə Şotlandiya millisi ilə heç-heçə edən ingilislərə də bu oyunda xalları bölüşmək, Avropa çempionatının növbəti mərhələsində yoluna davam etmək üçün yetərli idi. Lakin doğma azarkeşlər qarşısında yəqin yalnız qələbə uğrunda oynayacaqlar ki, bunun sayəsində pley-off oyununu Uemblidə keçirsinlər. Lakin əvvəlki iki mmatçda nümayiş etdirdikləri oyunla buna çətin nail olacaqlarını başa düşürdülər. Ona görə də oyuna daha yüksək enerji ilə başladılar.

Qlazqoda baş tutacaq Şotlandiya – Xorvatiya oyunu da gərgin anlar vəd edirdi. Bu komandaların hər birinə qələbə hava və su kimi lazımdır. Xorvatiya ilk xalını yalnız ötən turda Çexiya ilə heç-heçə oynadığı matçda qazanıb. Zlatko Daliçin komandası qrupda üçüncüdür və yalnız topların fərqinə görə Şotlandiyanı üstələyir. Şotlandiya da, öz növbəsində, İngiltərə ilə derbidə yüksək əzmkarlığı və mübarizə ruhu sayəsində bir xal qazandı. İndi həmin əzmkarlığı və mübarizə ruhunu təkrar göstərib Xorvatiya üzərində qələbəyə nail olmaq istəyirdilər. Onların millisi xoravatlarla oynadığı son beş oyunda heç vaxt məğlub olmayıb və hətta üçündə qələbə qazanıb. İndi bu seriyanı davam etdirməyin və Pley-off şanslarını artırmağın əsl məqamı idi və elə bu istəklə də şotlandlar hücuma atılmışdılar.

Dünən keçirilən hər iki oyun haqqında daha ətraflı növbəti yazımızda söz açacağıq.

**İlqar RÜSTƏMOV,**
**“Xalq qəzeti”**